**RƏYÇİ: dos. S. Abbasova**

**Məcid İsmixanov, Nəzakət İmamverdiyeva**[73]

# TƏLİMDƏ MÜASİR QİYMƏTLƏNDİRMƏ: NÖVLƏRİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Ölkəmizdə həyata keçirilən təhsil islahatı, təlimin digər sahələrində olduğu kimi, qiymətləndirmə sahəsində də yeni yanaşmaların, yeni mexanizmlərin həyata keçirilməsini nəzərdə tutur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi üzrə sistemin təkmilləşdirilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur [2]. Ənənəvi qiymətləndirmədən fərqli olaraq müasir qiymətləndirmə yeni məqsəd və vəzifələrin yerinə yetirilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Qiymətləndirmə təlimin səmərə və keyfiyyətinin yüksəldilməsində böyük əhəmiyyət kəsb edir. O, həm şagird üçün, həm müəllim və valideynlər üçün, həm də məktəb rəhbərləri və təhsili idarə edən orqanlşar üçün əhəmiyyətlidir. Şagird qiymətləndirmə yolu ilə özünün təlimdə üstün və zəif cəhətlərini başa düşür və öz üzərində işləyir, kəsirlərini aradan qaldırmağa çalışır. Müəllim bu yolla özünün pedaqoji fəaliyyətinin, iş metodlarının nəticəsi ilə tanış olur və dərs dediyi şagirdlərin təlim göstəricilərinə uyğun olaraq iş metod və texnologiyasını tənzimləyir, ayrı-ayrı uşaqlarla hansı istiqamətdə fərdi iş aparmağın yolları üzərində düşünür. Valideynlər öz övladlarının təlim səviyyəsi haqda məlumat alır və onlarla lazımi iş aparırlar. Məktəb rəhbərləri və təhsili idarə edən orqanlar qiymət göstəriciləri əsasında məktəbdə təhsilin səviyyəsi ilə tanış olur və müvafiq tədbirlər həyata keçirirlər.

Qiymətləndirmə təlim prosesini tamamlayan pillədir. O, təlimin səmərə və keyfiyyətini yüksəltməyə, əks əlaqəni təmin etməyə, müəllim və şagirdlərdə məsuliyyət hissini artırmağa, təlimi stimullaşdırmağa imkan verir. Hamı öz işinə verilən qiymətə böyük maraq göstərir. Şagirdlərdə bu maraq daha güclü olur [5, s. 222]. Qiymətləndirmənin təlim prosesindəki əhəmiyyətini nəzərə alaraq onun pedaqoji-psixoloji əsaslarda düzgün təşkilinə xüsusi diqqət yetirilməli, hər bir müəllim onun mahiyyətini yaxşı dərk etməli, qiymət mexanizminə mükəmməl yiyələnməli və onu düzgün tətbiq etməlidir.

Qiymətləndirmə bütöv təlim prosesi ilə sıx bağlı olub, onunla vəhdət təşkil edir: təlim prosesində qiymətləndirmə vasitəsilə şagirdlərin ilkin səviyyəsi üzə çıxarılır (diaqnostika), buna uyğun təlimin məzmunu və strategiyası seçilir, aralıq qiymətləndirmə vasitəsi ilə mənimsəmə səviyyəsi aşkara çıxarılaraq, təlimdə lazımi korreksiyalar aparılır. Yekun qiymətləri vasitəsilə şagirdlərin təlim nailiyyətləri müəyyənləşdirilir və s. Proses bu qaydada davam edir.

Qiymətləndirmə proses kimi geniş anlayışdır: şagirdin təlim fəaliyyətinin nəticələrinin qarşıya qoyulmuş məqsədlərə uyğunluq səviyyəsini müəyyənləşdirməyə, inkişafını izləməyə və istiqamətləndirməyə, nailiyyətlərini dəyərləndirməyə yönəlmiş mürəkkəb prosesdir.

Müasir qiymətləndirmə bir çox xüsusiyyətləri ilə ənənəvi qiymətləndirmədən fərqlənir və üstünlük kəsb edir. Həmin xüsusiyyətlərə aşağıdakılar daxildir [6, s. 166]:

- Müasir qiymətləndirmə öz məqsəd və vəzifələri ilə ənənəvi qiymətlən-dirmədən kəskin şəkildə fərqlənir. Ənənəvi qiymətləndirmənin məqsədi şagirdlərin, əsasən bilikləri mənimsəmə səviyyəsini dəyərləndirməyə xidmət etdiyi halda, müasir qiymətləndirmə bununla yanaşı təlim keyfiyyətini yüksəltməyə, təlimdə irəliləməni təmin etməyə, kəsirlərin korrektə olunmasına xidmət göstərir.
- Ənənəvi qiymətləndirmə dərsin əvvəlində və ya sonunda bir neçə şagirdin bilik və bacarıqlarını qiymətləndirməklə məhdudlaşırdı. Müasir qiymətləndirmə isə təlim prosesi ilə paralel aparılır, onun bütün mərhələlərində həyata keçirilir.
- Bütövlükdə ənənəvi təlim kimi onun qiymətləndirmə prosesi də, hafizəyə (biliklərin yadda saxlanması və yada salınmasına) xidmət etdiyi halda, yeni qiymətləndirmə şagirdin bilikləri yaradıcı tətbiqetmə, müstəqil düşünmə, təhlil və ümumiləşdirmə, nəticə çıxarma və digər təfəkkür əməliyyatlarının inkişafına, dəyərləndirilməsinə xidmət göstərir.
- Müasir qiymətləndirmənin əsas xüsusiyyəti onun obyektiv səciyyə daşıması ilə bağlıdır. Burada ənənəvi qiymətləndirmə üçün səciyyəvi olan subyektivizm aradan qaldırılır. Çünki qiymət dəqiq standartlara, meyarlara əsaslanır, ölçülə bilәndir. Belə olduqda subyektiv yanaşmaya imkan və şərait yaranmır.
- Müasir qiymətləndirmə ənənəvi qiymətləndirmədən fərqli əsaslarda (prinsip və tələblərdə, qiymətləndirmə vasitələrinə), fərqli mexanizmlərlə (fərqli qayda və meyarlarda, forma və metodlarda, tədris rejimində və s.) aparılır.
- Müasir qiymətləndirmə, ənənəvi təlimdə olduğu kimi, hər fənn üzrə ildə 5-6 qiymətlə məhdudlaşmır; o, il boyu aparılır, təhsilalanların bilik və bacarıq səviyyəsini daha yaxşı üzə çıxarmağa imkan verir.

Göründüyü kimi, müasir qiymətləndirmə ənənəvi qiymətləndirmədən tamamilə fərqlənir və təlimdə çox böyük rol oynayır. O, təlim prosesinin səmərə və keyfiyyətini yüksəltməyə və idarə etməyə, təhsilalanlarda bilik, bacarıq və həyati səriştələrin, müstəqil və yaradıcı fəaliyyət vərdişlərinin formalaşmasına, onların inkişafını istiqamətləndirməyə əlverişli şərait yaradır. Müasir qiymətləndirmə sistemi təkcə şagirdlərin təlim nailiyyətlərini dəyərləndirməklə məhdudlaşmır; o, daha geniş miqyaslı məsələlərin həllinə kömək edir: təhsildə keyfiyyətin idarə olunması və tənzimlənməsinin vasitəsi kimi də çıxış edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli 9 №-li qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" [3] çərçivə sənədində qiymətləndirmənin pedaqoji prosesdə böyük rolu qeyd olunmuşdur. Sənəddə müasir dövrdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər,

[73] BDU, Pedaqogika kafedrası, m.ismixanov@mail.ru, naza-52@mail.ru

qiymətləndirmə sisteminin vəzifələri, qiymətləndirmənin əsas xüsusiyyətləri və növləri, qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması və s. məsələlər öz əksini tapmışdır. Təlim-tərbiyə işlərini müasir dövrün tələblərinə uyğun şəkildə qurmaq məqsədi ilə sənəddə qiymətləndirmə fəaliyyətinə bir sıra tələblər qoyulmuşdur:

- təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunu yerinə yetirməsi;
- təhsilin keyfiyyəti üçün əsas göstərici olan "şagirdin təlim nəticələri" haqqında etibarlı məlumatın əldə edilməsi;
- qiymətləndirmə vasitəsilə şagirdlərin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikumlarında və dərslərdə müvafiq dəyişikliklərin aparılması;
- təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını yerinə yetirməsi;
- yaddaşa əsaslanan ənənəvi qiymətləndirmənin əksinə olaraq qiymətləndirmədə yeni yanaşmaların tətbiq edilməsi, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsi.

Sənəddə qiymətləndirmə fəaliyyətinə verilən tələblərin əməli vəzifəsi kimi məktəb təhsilinin keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaq, müəllimlərin yaradıcılığını artırmaq və bütövlükdə məktəb işlərinin keyfiyyətini müasir dövrün tələbləri səviyyəsinə qaldırmaq vəzifələri müəyyən edilmişdir. Qiymətləndirməyə belə geniş aspektdə yanaşılması təsadüfi deyildir: təlim-tərbiyə işində əsas göstərici nəticədir; nəticə də qiymətləndirmə ilə ölçülür. Nəticə təminedici deyilsə, onun səbəbləri axtarılmalı, onları şərtləndirən amillər araşdırılmalı, müvafiq korrektə işi aparılmalıdır. Belə iş isə məktəbin müxtəlif sahələri ilə - təlimin və tərbiyə işinin vəziyyəti, təhsilverənlərin hazırlıq səviyyəsi, təhsilalanların təlimə münasibəti, təlim prosesinin maddi-texniki və tədris-metodiki təminatı, məktəbin mənəvi-psixoloji mühiti və s. sahələri ilə sıx bağlıdır. Deməli, qiymətləndirmə çox müxtəlif amillərlə şərtlənir və onlara bu və ya digər dərəcədə təsir göstərir [8, s. 295].

Qiymətləndirmə bir çox funksiyaları yerinə yetirir: nəzarət, diaqnostika, öyrə-dici, tərbiyə, inkişaetdirici, tənzimləmə funksiyaları:

- nəzarət, yoxlama funksiyası təhsilalanların bilik və bacarıq səviyyəsini, onları necə dərk etmələrini müəyyənləşdirməkdə ifadə olunur.

- diaqnostik funksiya təhsilalanların bilik və bacarıqlarındakı kəsirləri, onları doğuran səbəbləri, şərtləndirən amilləri araşdırmaqda ifadə olunur. Kurikulum modelində qiymətləndirmə vasitəsilə müəllim kurikulum üzrə şagirdlərin təlim göstəricilərinin güclü və zəif cəhətləri, materialların çətinlik dərəcəsi və s. haqqında lazımi informasiya toplamaq və bu əsasda təlim prosesinin yaxşılaşdırılması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirə bilər;

- öyrədici funksiya yoxlama və qiymətləndirmə zamanı bilik və bacarıqlarda dəqiqləşmələr, düzəlişlər aparmağa, kəsirləri aradan qaldırmağa, şagirdin bilmədiyi məsələləri axtarıb-tapmağa və öyrənməyə şərait yaradır;

- stimullaşdırıcı funksiya təhsilalanlarda təlim müvəffəqiyyətlərindən, yaxşı görülən işdən uğur sevinci keçirməyə və təlimə maraq yaratmağa, onları yeni uğurlara həvəsləndirməyə, zəif oxuyanları öz üzərində işləməyə sövq etməkdə ifadə olunur;

- tərbiyə funksiyası təhsilalanlarda özünütəhsil tələbatı, özünütəsdiq, özünü qiymətləndirmə bacarıqları, səy və məsuliyyət hissləri formalaşmağa kömək göstərir;

- inkişafetdirici funksiya təhsilalanların müstəqil düşünmə, məntiqi, yaradıcı və tənqidi təfəkkür bacarıqlarının, zehni qabiliyyətlərinin, fərdi imkanları, maraq və meyllərinin inkişafı üçün əlverişli şərait, mənəvi-psixoloji iqlim, dəstəkləyici mühit yaratmaqda ifadə olunur;

- tənzimləyici funksiya təhsilalanların və təhsilverənlərin fəaliyyət nəticələrini, eləcə də bütövlükdə təlim-tərbiyə prosesinin, pedaqoji münasibətlərin səviyyəsini müəyyənləşdirməyə və bu əsasda müvafiq tənzimləmə işi aparmağa kömək edir.

Göründüyü kimi, qiymətləndirmə müxtəlif funksiyaları həyata keçirməklə pedaqoji prosesə güclü təsir göstərir. Qiymət çox incə bir pedaqoji vasitədir; o, təhsilalanları həvəsləndirə və ya ruhdan sala bilər. Hər şey qiymətin necə verilməsindən, onun pedaqoji tələblərə, prinsiplərə uyğun olub-olmamasından asılıdır [8, s. 296]. Qiymətləndirmənin səmərəsi üçün o müəyyən pedaqoji prinsiplərə uyğun qurulmalıdır. *Qiymətləndirmə prinsiplərinə* - obyektivlik, ədalətlilik, elmilik, şəffaflıq, siste-matiklik və b. daxildir.

Qiymətləndirmədə obyektivlik qiymətin təlim nailiyyətlərinə adekvat olmasın-da, şagirdlərin faktik bilik və bacarıqlarının səviyyəsini düzgün əks etdirməsində ifadə olunur. Qiyməti "şişirtmək" və ya "kəsmək", bu zaman "əliaçıqlıq" və ya "xəsislik etmək" eyni dərəcədə zərərlidir: birinci halda şagirdlərdə arxayınçılıq, ikinci halda isə öz qüvvələrinə inamsızlıq baş qaldırır. Buna yol verməmək üçün qiymətləndirmənin müvafiq normalara, meyarlara tam uyğun olmasını təmin etmək lazımdır.

Qiymətləndirmədə ədalətlilik hamıya eyni gözlə, eyni tələblə yanaşmaqda, şagirdlər arasında fərq qoymamaqda, bərabərlikdə ifadə olunur. Məktəb həyatında ədalətsizlik ən çox qiymətləndirmədə özünü göstərir. Buna yol yerməmək üçün qiymətləndirmədə və münasibətlərdə hamıya qarşı ədalətli, humanist, vicdanlı, diqqətli olmaq lazımdır. A.A.Bakıxanov ədalətlə insafı vəhdətdə götürərək deyirdi: "Hər bir insaflı adam ədalətli olar; insaf insan təbiətinin bəzəyidir və onu bütün pisliklərin mənbəyi olan zülm və haqsızlıqdan çəkindirir".

Qiymətləndirmədə elmilik qiymətləndirmə prosesini elmi əsasda qurmağı, bu zaman elmi prinsip və meyarlara əsaslanmağı nəzərdə tutur.

Qiymətləndirmədə şəffaflıq eyni meyarlar üzrə bütün şagirdlərin açıq sınağının keçirilməsində, qiymətin əsaslandırılmasında ifadə olunur. Bu prinsipə əməl edilməsi sayəsində şagird verilən qiymətin obyektivliyinə

(meyarlara uyğunluğuna) inanır, nə üçün bu və ya digər qiymət almasını dərk edir. Qiymətləndirmə nəticələri vaxtında aşkarlandıqda qeyri-sağlam fikirlərə, yersiz şübhələrə və narazılıqlara ehtiyac qalmaz.

Qiymətləndirmədə sistematiklik təhsilalanların bilik və bacarıqlarının müntə-zəm, sistemli şəkildə yoxlanılıb qiymətləndirilməsində ifadə olunur. Bu halda, ənənəvi təlimdə olduğu kimi, şagird ayda 1-2 dəfə dərsdə cavab verib qiymət aldıqdan sonra arxayınlaşmaz, hər dərsə, mövzuya səylə və məsuliyyətlə yanaşar. Həm də sistemli qiymətlənidirmə tədris materialının müxtəlif struktur ünsürləri – kurikulumda məzmun xətləri arasında əlaqə yaratmaq, ümumiləşdirmə və sistemləşdirmə aparmaq baxımından əhəmiyyətlidir.

Bəzi mənbələrdə [8, s. 288] qiymətləndirmə zamanı digər prinsiplərin də gözlənilməsi tövsiyə olunur: məqsədyönlülük, əyanilik (aşkarlıq), qarşılıqlı razılaşma və əməkdaşlıq prinsipləri.

Qiymətləndirmənin nəzərdən keçirilən prinsipləri təhsilin keyfiyyətinin təmin edilməsi və idarə olunması baxımından vacibdir. Həmin prinsiplərə kompleks halda əməl edildikdə şagirdlərin bilik, bacarıq və həyati keyfiyyətlərə (səriştələrə) daha yaxşı yiyələnməsinə, təlimə səy və məsuliyyət hisslərinin artırılmasına imkan yaranmış olur. Tədqiqatlar (M.Mərdanov, A.Mehrabov, Ə.Abbasov, İ.Cavadov və b.) göstərir ki, müasir şəraitdə tədris-təlim prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biri elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılan və düzgün prinsiplərlə həyata keçirilən qiymətləndirmənin aparılmasıdır. Qiymət şagirdin təhsil fəaliyyətində işlənən və onun uğurunu təyin edən qüvvətli stimuldur. Şagirdin təlimdəki uğuru düzgün və şəffaf qiymətləndirmədən asılıdır [8, s. 287].

Təlimdə bilik və bacarıqların mənimsənilmə səviyyəsini öyrənmək üçün məktəbdə qiymətləndirmənin üç növündən – ilkin (diaqnostik), cari və ya aralıq (formativ), yekun (summativ) qiymətləndirmədən istifadə edilir.

*Diaqnostik qiymətləndirmə* müəyyən mərhələlərdə - dərs ilinin əvvəlində, iri mövzu və ya bölməni keçməzdən əvvəl aparılır. Onun məqsədi şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini aşkara çıxarmaqdan, növbəti təlim mərhələsində müvafiq dəyişikliklər aparmaqdan, şagirdlərə fərdi yanaşmanı təmin etməkdən ibarətdir. Belə qiymətləndirmə şagirdlərin təlim (bilik) səviyyəsi haqqında ilkin məlumat bazası yaratmağa imkan verir ki, bu da onların sonrakı səviyyəsini müqayisə etmək üçün əhəmiyyətlidir. Diaqnostik qiymətləndirmə müəllim tərəfindən keçirilir, onun nəticələri jurnalda yox, müəllimin qeyd dəftərində əks olunur.

*Formativ qiymətləndirmə (irəliləyişin monitorinqi)* – təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının və formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Onun köməyi ilə şagirdlərin inkişafı – bilik, bacarıq və vərdişlərə yiyələnmə səviyyəsi öyrənilir, onların irəliləyişinin monitorinqi – müntəzəm izlənməsi həyata keçirilir. Uğur qazana bilməyən şagirdlərin çətinlikləri, ehtiyacları aşkara çıxarılır, onlara əlavə kömək göstərilir. Gündəlik qiymətləndirmədən əlavə 6 həftədən gec olmayaraq şagirdlərin daha ümumi monitorinqi keçirilir. Formativ qiymətləndirmənin nəticələri şagirdin kitabçasında, müəllimin şəxsi qeydlərində əksini tapır və şagird qovluğunda (portfolioda) toplanır.

*Summativ qiymətləndirmə* fənnin məzmun standartlarında göstərilən nəticələrin – bilik, bacarıq və səriştələrin formalaşması səviyyəsini əks etdirir. O, yeni qaydaya görə, üç formada – kiçik, böyük və yekun summativ qiymətləndirmə kimi həyata keçirilir. Kiçik summativ qiymətləndirmə fənn müəllimi tərəfindən hər yarım ildə 3 dəfə 1 dərs saatında keçirilir. Böyük summativ qiymətləndirmə hər təhsil səviyyəsinin sonunda (IV, IX, XI siniflərdə) bütün fənlər üzrə məktəb rəhbərliyi tərəfindən dərsdən sonra 90 dəqiqə ərzində keçirilir. Digər siniflərdə isə (V, VI, VII, VIII, X) yalnız buraxılış imtahanı olan fənlərdən böyük summativ qiymətləndirmə keçirilməsi nəzərdə tutulur. Təhsil səviyyələri üzrə yekun qiymətləndirmə mərkəzləşmiş qaydada buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin (ümumi orta təhsilə görə şəhadətnamə, tam orta təhsilə görə isə attestat) verilməsi ilə başa çatır.

*Milli qiymətləndirmə* kurikumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə 4-5 ildən bir keçirilir. *Beynəlxalq qiymətləndirmə* təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək, problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək və digər ölkələrlə müqayisəli şəkildə perspektiv inkişaf yollarını proqnozlaşdırmaq məqsədilə 3 ildən bir seçmə yolla aparılır [4, s. 100].

Qiymətləndirmənin nəzərdən keçirilən növləri özlərinə məxsus funksiyanı yerinə yetirir və bir-birini şərtləndirir. Ona görə də hər bir qiymətləndirmə növünə ciddi diqqət yetirmək, onların nəticələrindən təhsilalanların zehni, mənəvi və psixi inkişafı, eləcə də təlim keyfiyyətinin yüksəldilməsi və səmərəli idarə olunması üçün düzgün isfifadə etmək lazımdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, 2009
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı, 2013
3. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurikulum j., № 2, 2009
4. İlyasov M., Nəzərov M. Didaktika. Bakı, 2015
5. İsmixanov M., Bayramov H. Pedaqogika. Bakı, 2022
6. İsmixanov M. və b. Ümumi təhsil kurikulumunun əsasları. Bakı, 2016
7. Qasımova L., Mahmudova R. Pedaqogika (Dərslik). Bakı, 2021
8. Kurikulum islahatı: tədqiqatlar, nəticələr (nəşrə haz. Ə.Abbasov, J.Cavadov). Bakı, 2011


**Açar sözlər:** qiymətləndirmə, ənənəvi və müasir qiymətləndirmə, qiymətləndirmə funksiyaları, göstəriciləri, prinsip və növləri

**Ключевые слова:** оценивание, традиционное и современное оценивание, функции, показатели, принципы и виды оценивании

**Key words**: assessment, traditional and modern assessment, functions, indicators, principles and types of assessment

**Современное оценивание в обучении: виды и специфические особенности**

**Резюме**

В статье рассматриваются современное оценивание в обучении и ее специфические особенности. Авторы на основе анализа и обобщения педагого-психологических исследований излагают современные подходы к процессу оценивании, а также выявляют функции, показателей, виды и принципы их применения.

**Modern assessment in training process and its characteristic features**

**Summary**

This work studies modern assessment and its characteristics. The authors indicated the different aspects of modern assessment from difference with traditional assessment, as well as its functions, indicators, types and principles of application based on the analysis and generalization of pedagogical-psychological researches in the article.

**Rəyçi: dos. G.Kərimova**